# MİR CƏLALIN ƏSƏRLƏRİNDƏ MİLLİ PSİXOLOGİYA MƏSƏLƏLƏRİ

Görkəmli yazıçı və şairləri əsasən üç qrupa ayırırlar:

Birinci qrupa ümumbəşəri ideya və dəyərləri, bütün dövrləri və xalqları, bütövlükdə insanlığı tərənnüm edənlər, onu bədii obraz səviyyəsinə qaldıranlar aid edilir. Belə yazıçı və şairlər üçün konkret məkan və zaman, konkret bir xalq yoxdur. Onların əsərləri ölməzdir, bütün ictimai quruluşlarda, bütün dövrlərdə aktualdır. Bu əsərlər nəinki aktuallığını, əhəmiyyətini qoruyur, əksinə zamanı qabaqlayır. əsrlər keçdikcə daha aydın dərk olunur. daha çox ümumbəşəri mahiyyət kəsb edir. Belə yazıçı və şairlər dünya şöhrəti qazanır, bütün xalqların sevimlisinə çevrilir. Bu qrupa aid edilən yazıçı və şairlər yalnız bədii sözün qüdrətini insanlara çatdırmır, həm də insanlığın mahiyyətini bir filosof qüdrətilə ümumiləşdirməyi bacarırlar. Onların əsərlərini oxuyan istənilən xalqın nümayəndələri istənilən obrazda özünü görür. Bunlar həm də idrakı zənginləşdirən, düşündürən, dünyanı gözəlləşdirməyə çalışan və ona nail olan dahi yazıçı və şairlərdir. Nizaminin insan azadlığı, sosial ədalət, xeyir və şər ideyaları, Füzulinin ilahi sevgi tərənnümü və s. bu qəbildəndir. Höte, Tolstoy, Folkner və digər dünya şöhrətli yazıçı və şairlər bu qrupa aid edilən dahi sənətkarlardır.

İkinci qrupa aid edilən görkəmli yazıçı və şairlər öz dövrlərində baş verən ictimai-siyasi, əxlaqi, mənəvi prosesləri elə ustalıqla. sənətkarlıqla. dəqiqliklə təsvir edirlər ki, onların əsərləri özlərinin sağlığında, həm də özlərindən sonrakı onilliklərdə, yüzilliklərdə sevilə-sevilə oxunur. Bu əsərlər konkret bir xalqın həyat və düşünmə tərzini elə yüksək bədii boyalarla təqdim edirlər ki, hətta bu əsərlərə istinad etməklə həmin xalqın həyat və düşüncəsində, iqtisadi-siyasi həyatında baş verə biləcək hadisələri az qala dəqiqliklə görmək mümkün olur. Bu əsərləri oxuyan hər kəs həmin xalqın nəinki görünən, hətta görünməyən tərəflərini də aydınca görə bilirlər. Bu sənətkarlar ölümlərindən sonra da neçə-neçə əsrlər boyu ölümsüzlük qazanır. bir insan, bir yazıçı xoşbəxtliyi səviyyəsinə yüksəlirlər. Onların ən böyük amalı xoşbəxtlik. millətini xoşbəxt görməkdir və öz istəklərini, düşüncələrini məhz bədii əsərləri vasitəsilə xalqa çatdırmağa çalışırlar. Belə xoşbəxt sənətkarlara M.F.Axundov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Üzeyir Hacıbəyov və başqalarını aid etmək olar.

Bu gün anadan olmasının 100 illiyi qeyd edilən görkəmli Azərbaycan yazıçısı, professor Mir Cəlal da bu qrupa aid edilən görkəmli sənətkarlardandır.

Üçüncü qrup yazıçı və şairlər isə yalnız öz dövrlərinin sənətkarlarıdır. Onilliklər keçdikdən. öz həyatlarını başa vurduqdan sonra onların əsərləri köhnəlir, özləri isə unudulur.

Mir Cəlal yaradıcılığa çox erkən - 1926-cı ildə 18 yaşında ikən "Yeni fikir" qəzetində çap edilən məqalə ilə başlamışdır. O, elə ilk əsərindən başlayaraq xürafata qarşı çıxmış, sonrakı illərdə mövzu dairəsini genişləndirərək yaradıcılığında yeri dövrün aktual məsələlərinin təsvirinə vermişdir.

Mir Cəlal hekayə ustası olmuşdur. O, 30-cu illərin əvvəllərindən başlayaraq ömrünün sonuna qədər (1978-ci il) bu janrda ardıcıl şəkildə yüksək bədii dəyərə malik əsərlər yaratmışdır. Bununla yanaşı, Mir Cəlal həm də gözəl, yüksək sənətkarlıqla yazılmış 6 romanın müəllifidir. İlk irihəcmli əsərini - "Dirilən adam" romanını Mir Cəlal 1935-ci ildə 27 yaşında olarkən yazmışdır. Əsərdəki hadisələr inqilabdan əvvəlki dövrdə cərəyan edir. Bu əsərdəki hadisələr özünün reallığı, bədii təsvir səviyyəsi, yüksək yazıçı təxəyyülünün məhsulu kimi oxucunu heyrətləndirir. Sanki yazıçı bu hadisələrin içərisində olmuş, onları öz gözləri ilə görmüşdür. "O, gözaltı Qumrunun yerişinə, ayaqlarına fikir verdisə də, topuğunu görə bilmədi, çünki uzun, büzməli tuman yerlə sürünürdü. Bəbir bəyin qadın seçməkdə əsl şərtlərindən biri də baldır, ayaq məsələsi imiş.



Mir Cəlal və Mehdi Hüseyn

Bal-dır, deyirmiş, nə çox uzun, nə də nazik ola, ayaqları elə tən gərək ki, sağ ilə sol seçilməsin".

"Dirilən adam" romanında ilk baxışda əsərə o qədər də dəxli olmayan, diqqəti cəlb etməyən bir epizod var. Erməni-azərbaycanlı davası. Əsərdə təsvir olunan epizod bizim bir xalq kimi necə unutqan olduğumuzu bir daha göstərir. Həmin hadisələrə fikir vermədiyimizdən bu hadisələr yenidən 90-cı illərdə başımıza gəldi, təkrarlandı.

" - Ay qardaş müsəlman, məni də apar. O, saçı, başı açıq, enlisifət bir qadın idi. Hamı birdən qorxub qaçdığı halda o pilləkənlərdən düşüb, mənə tərəf gəldi, dedi: "Mən müsəlmanam, məni əsir gətirmişdilər. İndi üç aydı...." - Baxdım, baxdım, Avazlı Qənbər yadıma düşdü. Eşidibsən, onun arvadı dağdan yoxa çıxmışdı? Adını soruşdum. Yanılmıram. Qənbərin arvadı idi. Qadın



Mir Cəlal ailə üzvləri arasında. 1946

mənim ayaqlarıma düşüb yalvardı. Onu qaldırdım. gətirmək istəyirdim. Yoldaşım qulağıma pıçıldadı:

- Sən nə xülyadasan? Bu, əllərdən çıxmış adamı yanımıza salmaqmı istəyirsən?

Yadıma düşdü ki, buna kafir əli dəyib. Qan beynimə vurdu. Acığımdan bilmirəm arvadı haçan parçalamışam, doğramışam.

Bu söhbətlər nə qədər qəribə, nə qədər təzə olsa da, Bəbir bəyi məşğul edə bilmirdi, çünki o çox dalğın idi, gecikmiş və kiflənmiş bir eşqin qorxusu ilə keflənmişdi".

Repressiyanın başlandığı bir dövrdə Mir Cəlal sanki oxucularını oyatmağa, silkələməyə, düşmənini tanıtmağa çalışırdı. Çalışırdı ki, "eşqdən keflənənlər" ayılsın. Tarix sübut etdi ki, Mir Cəlalın təlaşı əbəs deyilmiş, tarix təkrarlandı.

Mir Cəlal yaradıcılığı düşündürücü yaradıcılıqdır. O, sanki hadisələrə, onun gedişinə müdaxilə etmir, bir müəllif kimi öz mövqeyini ortaya qoymur. Əslində isə hadisələrin gedişinin dəqiq, realist təsviri elə Mir Cəlalın mövqeyidir. O, yazır:

"Dünya bir-birinə dəyib. Əlində bir berdankası olan hər kəs yerə-göyə sığmır. Qoçuluq, çal-çap dünyasıdır. Korluq çəkən Qədir kimi kasıb-kusub, fəqir, aciz adamlardır".

Əsərdə sosialist inqilabına qədərki Azərbaycan həyatı, insanların məşəqqəti inandırıcı boyalarla verilir. Ağaların, bəylərin zülmü, axundların, mollaların riyakarlığı, haqsızlığı, satqınlığı insanları bezdirmişdi. Təbii ki, belədə insanlar cəmiyyətdə dəyişkənlik istəyir, rejimin dəyişməsini istəyir. Belə bir dəyişiklik baş verdi. Bu dəyişiklik haqsızlığı, ədalətsizliyi azaltmadısa da, insanlar onlara zülm edənlərin özlərinin də daha pis aqibətlə üzləşdiyini gördülər. Gördülər ki, zülm edənin özü də zülmə rast gəlir.

Yuxarıda deyildiyi kimi, Mir Cəlalın əsərləri həm zamanında, həm də bu günümüz üçün aktualdır, dəyərlidir. Bu əsərlərdə Azərbaycan həyatında, cəmiyyətdə baş verən ictimai-siyasi proseslər elə inandırıcı şəkildə bədii boyalarla verilib ki, onun istiqamətinin hara gedəcəyini, nələrin baş verəcəyini dərk etmək o qədər də çətin deyil.

Mir Cəlal Azərbaycan dövlətinin müstəqilliyini görmədi. Lakin onun ideyaları, irəli sürdüyü, həlli yollarını göstərdiyi problemlər bu günümüz üçün - XXI əsrin birinci onilliyi üçün son dərəcə dəyərlidir. Yazıçının hələ 1939-cu ildə yazdığı "Bir gəncin manifesti" poeması yazılan dövrdə necə ki, "gənclər haqqında yazılmış əsərlərdən ən yaxşısı idi", müasir dövrümüz üçün də ictimai-siyasi tutumuna görə ən yaxşı əsərlərdəndir. "Bir gəncin manifesti" əsəri öz layiqli qiymətini alıb. Əsər 1968-ci ildə Lenin Komsomolu mükafatına layiq görülüb.

Professor Qulu Xəlilov Mir Cəlal haqqında belə yazıb: "Mir Cəlal həyata və həqiqətə sadiq yazıçı, insan psixologiyasını dərindən bilən, onu səbir və təmkinlə əks etdirən, müasir varlığı dərin məhəbbətlə sevən sənətkardır".

Bu gün dünyada maraqlı. düşündürücü, həm də qorxu gətirən proseslər gedir. Bir tərəfdən insanlara inkişaf etmiş Qərb dövlətlərinə transformasiya, inteqrasiya təlqin olunur, qloballaşmanın qaçılmaz olduğu vurğulanır, digər tərəfdən isə əksinə, millilik, soy-kökünə bağlılığın zəruriliyi sübut olunur. Hər iki tərəfin kifayət qədər tərəfdarları və əleyhdarları vardır. Tərəflərdən hər biri öz fikirlərinin doğruluğunu sübut etmək üçün kifayət qədər fakt. sübut-dəlil ortalığa qoyur. Kimi sübut edir ki, dünyada ikili standartlar və yanaşmalar var və Qərbi bizim yox, öz problemlərini həll etməyə çalışır. Onlara bizim təbii sərvətlərimiz, xüsusilə strateji məhsul olan neftimiz lazımdır. Onlar bizim torpaq problemimizi, ərazi bütövlüyümüzü həll edən deyillər. Deməli, onlara yox, özümüzə güvənməliyik. Kimi isə əksinə. elm və texnikanın inkişaf etdiyini, ölkələrin inkişafının yalnız həmin ölkələrin deyil, dünyanın problemi olduğunu söyləyir. İndi dünyada baş verənlər heç də ölkəyə təsirsiz ötüşmür.

Təbii ki, tərəflərdən hər birinin mövqeyində həqiqət var. Bəs çıxış yolu varmı və nədədir? Bu proseslərin Azərbaycan xalqına təsiri nə dərəcədədir? İstərdim ki, qısaca da olsa bu proseslərə nəzər salaq və Mir Cəlal yaradıcılığında onun necə əks olunduğunu diqqətinizə çatdıraq. Çünki bədii əsər xalqın düşüncə tərzini əks etdirən ən yaxşı vasitədir.

İlk növbədə qloballaşma barədə. Qloballaşma sadəcə olaraq müxtəlif dövlətlərin inteqrasiyası yox, təhsil, mədəniyyət, iqtisadiyyat. hətta, düşünmə tərzinin yaxınlığı, mümkün olsa, oxşarlığı deməkdir.

Hələ 1959-cu ildə məşhur ingilis yazıçısı və fiziki Çarlz Snou Nobel mükafatının təqdimatı mərasimində söylədiyi nitqində göstərdi ki, cəmiyyətin inkişafı ilə bağlı iki fərqli şüur forması və ziyalı təbəqəsi yaranıb. Bunlardan biri humanitar, digəri texniki təfəkkürlü, dünyagörüşlü insanlardır. Humanitarlar ənənənin pozulduğunu, getdikcə mənəviyyatın korlandığını, texnokratlar elmi-texniki tərəqqiyyə istinad edərək cəmiyyətin daha da tərəqqi edəcəyini göstərirlər. Uyğun olaraq humanitarlar milliliyin, texnokratlar qloballaşmanın təəssübkeşi kimi çıxış edirlər.

Psixoloqlar sübut edirlər ki, insanın psixososial təkamülü sosiogenetik təkamüldən asılıdır. İstənilən halda insan öz etnogenetik köklərinə bağlı olur. Bu həm də erkən dövrlərdən uşaqlarda tərbiyə olunur və yeniləşən şəraitə qarşı psixoloji sipər rolu oynayır.

Etnogenetik mahiyyət daşıyan, uşaqlıqdan tərbiyə edilən. yaşanan sosial mühitin sistematik təqdim olunması insanlarda psixoloji şok vəziyyəti yaradır. Müasir dövrdə reallıqda Qərb dövlətləri insan həyatının qorunması adı altında öz ibtidai maraqlarını güdürlər.

(ardı 6-cı səhifədə)

# Mir Cəlalın əsərlərində milli psixologiya məsələləri

*(əvvəli 5-ci səhifədə)*

Məsələn, neft, qaz, marqans və s. strateji məhsulların ələ keçirilməsi üçün bu cür addımlar, insan haqları, demokratiya oyunlarından istifadə edirlər.

Göründüyü kimi, qloballaşma, inteqrasiya qaçılmaz prosesdir. Onun qarşısının alınması mümkünsüzdür. İndi bir ölkə daxilində baş verənlər yalnız həmin ölkənin deyil, dünyanın problemi kimi nəzərdən keçirilir. İndi bir ölkənin sərvəti yalnız həmin ölkənin deyil, ümumbəşəri sərvət hesab edilir. Bunlarla belə, indi hər bir xalqın öz varlığını, öz mənəviyyatını təqdim və təsdiq etməsi üçün geniş imkanlar yaranmışdır.

Kim bu iki, ilk baxışdan bir-birinə ziddiyyət təşkil edən proseslərin vəhdətini qura bilsə, o ölkə, o xalq inkişaf edəcək. Əks halda, ya qloballaşmanın qurbanına çevriləcək, ya da özünə qapanıb özünütəcridin qurbanı olacaq.

Hesab edirəm ki, bu qızıl ortanın tapılmasında Mir Cəlal yaradıcılığı istinad edilə biləcək ən dəyərli mənbələrdəndir. Çünki bu əsərlərin başlıca qayəsi milli özünüdərkdir.

Milli özünüdərk tarixi keçmişini bilmək, öyrənməklə onun neqativ və pozitiv tərəflərini görməkdən keçir. Mir Cəlal yaradıcılığının ana xəttini də bu amil təşkil edir. Bu əsərlərdə milli xüsusiyyətlərimiz elə zəngin boyalarla təqdim olunub ki, oxucu sanki hadisələrin iştirakçısına çevrilir, onu yaşayır.

Sona gəlinliyində toxuduğu "Yusif - Züleyxa" xalçasını əzizləyərək yük yerində saxlayır. Hətta oğlunun onun üstündə oturmasına qıymır, oğlunun toyuna saxlayır. Oğlu Mərdansa belə deyir:

"Müsəlmanın işi belədir, xalça-palazı yük yerində çürüdər, özünün də canı çul üstündə çıxar!"

Anası isə cavabında deyir: "İyirmi ildən çoxdur onu üfürə-üfürə saxlamışam, bir niyyətim var ki, saxlamışam da!"

Sonanın oğlu Baharın meşədən tapdığı, sevə-sevə böyütdüyü ceyran balasını "misterə, ingilisə" bağışlamaq istəyir. Sona ceyran balasını verib hələ kiçik bir hədiyyə də ala bilərdi. Amma belə etmədi. Ceyranı çölə buraxdı".

"Sona "Yusif-Züleyxa"sını qoltuğuna vurub bazara aparmalı olmuşdur. Uşaqlarına çörəkpulu, namərd əlində qalmış Mərdana oğluna xərclik, rüşvət pulu tapmaq üçün son ümidini - xalçanı satmalıdır".

"İngilis burada iri və məğrur addımlar ataraq istədiyi hər şeyə diqqət yetirir, heç kəsdən məsləhət soruşmur, heç kəsdən çəkinmirdi".

"Tacir Sonanın xalçasını görmüşdü: "Bəh-bəh, - deyə-deyə ağasına, ingilisə göstərirdi. İngilisin gözü sataşan kimi heyrətdən rəngi daha da bozardı". İngilisin bütün cəhdlərinə baxmayaraq Sona xalçanı satmır:

"İtə ataram, yada satmaram!" - deyir.

Sona arxasını misterə və tacirə çevirib elə gedirdi ki, deyəsən evdə yağı daşır. Onun dalınca iki həris canavar gözü baxır, yanırdı.

Yüzlərlə vətəndaşın sevincli, alqışlı baxışları o namuslu qızı və qeyrətli ananı yola salırdı".

"Yusif-Züleyxa" xalçası satılmadı. Amma "Şeyx Səfi" xalçası London muzeyində, "Dədə Qorqud dastanı" Vatikan, Berlin muzeylərindədir. Hələ neçə-neçə incilərimiz dünyanın müxtəlif muzeylərini bəzəyir. Biz isə onlara ya şüşə arxasından baxır, ya da ümumiyyətlə, haqqında eşidirik.

Mir Cəlal yaradıcılığının gücü, qüdrəti budur. Bu yaradıcılığın mahiyyətini, vətən, vətəndaşlıq qayəsi təşkil edir. Elə buna görə Mir Cəlal yaradıcılığı bu gün də var, sabah da olacaq.

Mir Cəlalın əsərləri bir çox dünya xalqlarının dilinə tərcümə olunub. Deməli, Mir Cəlal bu gün də Azərbaycanı, Azərbaycan varlığını dünyaya yayır, onu təbliğ edir.

***Ramiz ƏLİYEV,***
***Təhsil Problemləri İnstitutunun şöbə müdiri,***
***psixologiya elmləri doktoru,***
***professor***